# AZƏRBAYCANIN MUSİQİ İNCİSİ – ŞUŞA ŞƏHƏRİ

Azərbaycanın mədəniyyət paytaxtı, incisi hesab olunan Şuşa şəhəri qədim ənənələrə, tarixə malik, görkəmli şəxsiyyətlər bəxş etmiş şəhərlərdən biri olmuşdur. XIX əsrdə Şuşa şəhərində 22 musiqişünas, 95 şair, 38 xanəndə, 16 rəssam, 18 memar fəaliyyət göstərmişdir. Birinci Qarabağ Müharibəsindən öncə Şuşa şəhərində 6 muzey, 31 kitabxana, 4 kinoteatr, 8 mədəniyyət evi, Şərq musiqi alətləri fabriki, 1 teatr fəaliyyət göstərmişdir. Qeyd etmək lazımdır ki, Şərq musiqi alətləri fabriki Qafqazda yeganə fabrik olmuşdur. Fabrikdə tar, kamança, saz, nağara, qaval, qoşa nağara kimi musiqi alətləri hazırlanırdı. Şuşa şəhəri Mir Möhsün Nəvvab, Cabbar Qaryağdıoğlu, Sadıqcan, Qurban Pirimov, Məşədi İsi, Hacı Hüsü, Keçəçi oğlu Məmməd, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Üzeyir Hacıbəyli, Əfrasiyab Bədəlbəyli, Niyazi, Əşrəf Abbasov, Fikrət Əmirov, Soltan Hacıbəyov, Zülfi Adıgözəlov, Zülfüqar Hacıbəyov, Süleyman Ələsgərov, Rəşid Behbudov kimi görkəmli musiqi xadimlərinin vətəni olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan musiqi tarixində adları çəkilən şəxsiyyətlərin müstəsna xidmətləri olmuşdur. Ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərinə həm də “Kiçik Paris”, “Azərbaycan musiqisinin beşiyi”, “Qafqazın sənət məbədi”, “Qafqazın konservatoriyası” adı ilə də müraciət edilirdi. XIX əsrdə Şuşa şəhərində musiqi məclisləri, dərnək və cəmiyyətləri təşkil olunurdu. Musiqişünas, alim Mir Möhsün Nəvvabın xanəndə Hacı Hüsü ilə birlikdə təşkil etdikləri “Xanəndələr məclisi” buna bariz nümunə ola bilər. “Xanəndələr məclisi”ndə muğamın estetik və ifaçılıq problemləri, ümumilikdə muğam sənəti müzakirə olunurdu. Burada İslam Abdullayev, Məşədi Cəmil Əmirov, Sadıqcan, Seyid Şuşinski və digərləri iştirak edirdi.



Respublikamızın ictimai-siyasi, tarixi-mədəni həyatında mühüm əhəmiyyət kəsb edən mədəniyyətimizin beşiyi, musiqi incisi hesab olunan Şuşa şəhəri artıq 271-ci ildönümünü yaşayır. Belə ki, əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli Xan tərəfindən qoyulmuş Şuşa şəhəri 28 illik ayrılıqdan sonra yenidən dirçəlməyə, inkişaf etməyə başlayır. Təsadüfi deyil ki, 2020-ci ildə 44 günlük müharibənin şanlı zəfərindən sonra Şuşa şəhərində əhəmiyyətli dəyişikliklər baş verməyə başladı. İlk növbədə şəhərin infrastrukturu yenidən qurulmağa, habelə bir çox tarixi və memarlıq abidələri bərpa edilməyə başladı. Əlbəttə ki, prosesin daha sürətli baş verməsi üçün Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi yaradıldı. Bu işdə əsas yük Heydər Əliyev Fondunun üzərinə düşür. Belə ki, Heydər Əliyev Fondu Şuşada bir çox layihələrin bərpasını başa çatdırıb. Sürətli inkişaf zamanı ilk növbədə Azərbaycanın görkəmli şairi Molla Pənah Vaqifin muzey-məqbərəsi və büstü, dövrünün məşhur xanəndəsi olmuş Bülbülün ev-muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəli, Yuxarı Gövhər Ağa Məscidi, şair-rəssam və musiqişünas Mir Möhsün Nəvvabın ev-muzeyi, Şuşa Xalça Muzeyi bərpa edilərək, istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev daim öz çıxışlarında Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyini qeyd edir: "Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaqdır" [3].

Rəsmi olaraq Azərbaycanın mədəni paytaxtı hesab olunan Şuşada bir çox əhəmiyyətli tədbirlər, beynəlxalq festivallar keçirilməkdədir. Məsələn, "Xarıbülbül" festivalı buna bariz nümunə ola bilər. Qeyd etmək lazımdır ki, 1989-cu ildən etibarən "Xarıbülbül Musiqi Festivalı" keçirilməkdədir. Azərbaycanın görkəmli xanəndəsi Seyid Şuşinskinin 100 illiyi ilə əlaqədar keçirilməyə başlayan "Xarıbülbül Musiqi Festivalı" hər il may ayında keçirilmişdir. Festivalın ilk ilində Qazaxıstan, Belarusiya, Qırğızıstan, Başqırdıstan, Litva kimi ölkələrdən folklor ansamblları maraqlı proqram ilə iştirak etmişdir. Şuşanın ürəyi hesab olunan Cıdır düzündə baş tutan festivalda 100-ə yaxın musiqiçi iştirak etmişdir. Artıq 1990-cı ildən sözügedən festival Beynəlxalq statusunu qazanır və ABŞ, İsrail, Yaponiya, İtaliya, Niderland, Türkiyə, Əfqanıstan, Avstriya, İspaniya və s. kimi ölkələrdən musiqi ansamblları da festivalda iştirak etməyə başlayır. Birinci Qarabağ müharibəsi dövründə Şuşa şəhərində festivalın keçirilməsi mümkünsüz hala çevrildi və festivalın məkanı qonşu şəhərlərə köçürüldü. Atəşkəsin elan edilməsi ilə festivalın da keçirilməsinə böyük ara verildi və yalnız 29 ildən sonra 2021-ci ildə Xaribülbül Musiqi Festivalı yenidən Şuşada, Cıdır düzündə təşkil olundu. Sevindirici haldır ki, artıq Xarıbülbül Musiqi Festivalı bütün dünyaya səs salmış məşhur festivallardan birinə çevrilməkdədir. Əlbəttə ki, Birinci Qarabağ mühari-

bəsi və Şuşa şəhərinin işğalı ilə əlaqədar bu festivalın keçirilməsi dayandırılmışdır. Lakin şanlı zəfərdən sonra yəni 2021-ci ildən etibarən festival yenidən bərpa olunmuşdur. Festivalın həcmi ildən ilə daha da artmağa başlamışdır.

Şanlı qayıdışımızın daha bir nümunəsi 39 ildən sonra Vaqif Poeziya günlərinin keçirilməsidir. Qeyd etmək lazımdır ki, Vaqif poeziya günlərinin keçirilməsi birbaşa olaraq Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1982-ci ildə görkəmli şair Molla Pənah Vaqifin məqbərəsinin açılışı baş tutduqdan sonra Heydər Əliyev hər il avqust ayında poeziya günlərinin təşkil olunmasını göstəriş vermişdir.

2021-ci ildə "Qafqazın konservatoriyası" adlandırılan Şuşa şəhərində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsert baş tutmuşdur. Konsert proqramı Fikrət Əmirov adına Mahnı və Rəqs Ansamblının Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə keçirilmişdir. Bildiyimiz kimi, 1995-ci ildən etibarən 18 sentyabr – Üzeyir bəyin doğum günü Respublikamızda "Milli musiqi" günü kimi qeyd olunur. Təqdirə layiqdir ki, Şuşa şəhərinin geri qaytarılmasından sonra Üzeyir bəyin heykəlinin və büstünün yenidən bərpa edilməsi, habelə adını daşıyan Musiqi Festivalının açılışı məhz Şuşa şəhərinə təsadüf etmişdir.

Qeyd etmək lazımdır ki, 2 qəsr, 2 mədrəsə, 3 türbə, 6 karvansara, 17 məscid, bir neçə kilsə-monastr, ümumilikdə 72 mühüm sənət və tarixi abidənin yerləşdiyi Şuşa şəhəri böyük əməklər nəticəsində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi Mədəni İrsin İlkin siyahısına daxil edilmişdir.

Qədim Şuşa şəhərinin müharibədən sonra yenidən dirçəlməsi və dünyaya tanıdılması üçün Azərbaycan Respublikasında 2022-ci il "Şuşa ili" elan edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2022-ci il ərzində Şuşa şəhərində bir sıra tədbirlər həyata keçirilmişdir. Onlara misal olaraq, "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı, "Vaqif Poeziya Günləri", "Şuşanın 4 fəsli" adlı Beynəlxalq Fotoqrafiya Festivalı, "Şuşa-2022" Beynəlxalq İncəsənət Festivalı, "Şuşa yaradıcılıq emalatxanası" layihəsi, "Şuşa söhbətləri", Azərbaycan vokal məktəbinin banisi, dahi Bülbülün anadan olmasının 125 illiyinə həsr olunan Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsi, "Televiziya Muğam Müsabiqəsi – 2022"nin final mərhələsi və Qala Konsertini və digər tədbirləri demək olar. Deyilənlərlə yanaşı "Şuşa ili" çərçivəsində xarici və yerli incəsənət və ədəbiyyat xadimlərinin, kütləvi informasiya vasitələri nümayəndələrinin, təhsil müəssisələri kollektivlərinin, Respublikada keçirilmiş bir çox beynəlxalq tədbir iştirakçılarının, blogerlərin Şuşa şəhərinə səfəri təşkil olunmuşdur.

"Şuşa ili" nəinki Azərbaycanda, hətta onun sərhədlərindən kənarda da təmtəraqlı şəkildə qeyd olunmuşdur. Buna misal olaraq, Avstriya, Macarıstan, Belçika Krallığı, ABŞ, Türkiyənin bir çox şəhərləri və s. ölkələrdə müxtəlif səpgili konsert və sərgilər, silsilə tədbirlər həyata keçirilmişdir.

31.05.2022-ci il tarixində Türkiyə Cümhuriyyətinin Bursa şəhərində təşkil olunmuş Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv respublikaların Mədəniyyət Nazirlərinin Daimi Şurasının iclasında 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı"Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri seçilmişdir. Bu münasibətlə Azərbaycanın mədəniyyət beşiyi hesab olunan Şuşa şəhərində bir sıra tədbirlər həyata keçirilmişdir. Bunlara misal olaraq, "Xarıbülbül VI Beynəlxalq Musiqi Festivalı 2023", Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumu, "Vaqif Poziya Günləri", Şuşa Qlobal Media Forumu, "Qorqud Ata Türk Dünyası" Film Festivalı və s. demək olar. Bununla yanaşı, qədim şəhərin Türk dünyasının mədəniyyət paytaxtı elan olunması ilə əlaqədar, Şuşa şəhərinin elektron xəritəsi və mobil tətbiqi, habelə poçt markaları və xatirə nişanı hazırlanmışdır.

Sevindirici haldır ki, Şuşa şəhəri 2024-cü il üçün İslam dünyasının paytaxtı elan olunmuşdur. Belə ki, Qətər Respublikasının Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirakçıların yekdil qərarı ilə İslam sivilizasiyasının simvollarından biri olan Şuşa şəhəri İslam dünyasının paytaxtı elan edildi. Qeyd etmək lazımdır ki, Şuşa Şəhəri Dövlət Qoruğunda islama dair bir sıra abidələr mövcuddur. Bunlara misal olaraq, 2 mədrəsə, 17 məscid və s. demək olar.

Şuşa şəhərinin yuxarıda sadalanan siyasi, mədəni, diplomatik, iqtisadi beynəlxalq tədbirlərə ev sahibliyi etməsi əlbəttə ki, qədim şəhərin dünya miqyasında tanınmasına birbaşa təsir edir. Tədbirlər çərçivəsində təşrif buyurmuş qonaqlar Ermənistanın işğalı altında olduğu müddətdə Şuşa şəhərinin necə viran olunduğunun şahidi olurlar. Eyni zamanda Şuşa şəhərinin ecazkar təbiəti, qədim tarixi və mədəniyyəti ilə tanış olurlar.

**ƏDƏBİYYAT:**

1. Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt.ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.
2. URL: http://anl.az/down/zeferimizin-tentenesi.pdf
3. URL:https://yeniazerbaycan.com/SonXeber_e83363_az.html
4. URL:https://qafqazinfo.az/news/detail/bu-seherin-medeniyyet-paytaxti-elan-edilmesi-susa-iline-en-deyerli-tovhedir-369839
5. URL:http://anl.az/down/meqale/ses/ses_may2009/78212.htm

**Zümrüd PAŞAYEVA**
AMK-nın "Milli vokal" kafedrasının baş müəllimi